# Şəkərli diabet tip 2 olan xəstələrin psixoloji durumu, depressiya, narahatlıq və stress halları

**Aynur Fərda qızı İmanova**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** aynur_imanova@mail.ru

**Rəyçilər:** psixol.ü.e.d., prof. E.İ. Şəfiyeva,
f.ü.e.d., prof. Q.Y. Abbasova

**Açar sözlər:** diabet, psixoloji, depressiya, həyat, emosiya, tibb, xəstə
**Ключевые слова:** диабет, психология, депрессия, жизнь, эмоции, медицина, пациент
**Key words:** diabetes, psychological, depression, life, emotion, medicine, patient

Hal-hazırda ümumdünya səhiyyə təşkilatı şəkərli diabetin yayılmasını qeyri-infeksion epidemiya xarakterli olmasını qəbul edir. İnsanlar arasında ölümə səbəb olan xəstəliklərin sırasında onuncu yeri tutur (1). Xəstələrin həyat keyfiyyətinə şəkərli diabetin yaratdığı fəsadlar daha çox təsir edir. Endokrinologiya sahəsinin inkişafının ilk dövrlərində endokrinoloji xroniki xəstəliklərin simptomokoplekslərinin təsvirində psixi dəyişikliklərin olduğu haqda fikir irəli sürülmüşdür. Bütün xroniki gedişli endokrin xəstəliklər içərisində şəkərli diabet özünəməxsus əlamətləri ilə seçilir. Belə ki, pasiyentlər qarşısında bir sıra çətinliklər-pəhrizlə qidalanma, daima qanda şəkərin miqdarına nəzarət, müxtəlif dərman və insulin inyeksiyalarının olması, bəzi ağırlaşmaların yaranma ehtimalı kimi problemlər durur (2). Xəstələrin psixi durumuna təsir edən başlıca faktor xəstəliyin müddətidir. Xəstəliyin uzun müddətli gedişi zamanı orqanizmdə ikincili patologiyaların, müxtəlif orqanlarda yaranan dəyişikliklər psixi duruma daha da mənfi təsir göstərir(3). Belə hallara ilkin olaraq diabetik ensefalopatiya aiddir. Bu termini 1950-ci ildə R.de Jong ilk dəfə təklif etmişdir. “Diabetik ensefalopatiya”nın kliniki təzahürlərinə nevroz halları, koqnitiv funksiyaların pozulması, orqanik nevroloji simptomlar aiddir. 2006-cı ildə E.V.Elfimovun apardığı tədqiqat nəticəsində diabetik xəstələrdə 33.4%-ində nevrozabənzər pozuntuların olduğu göstərilmişdir. Nevroz hallarının yaranma səbəbi kimi ilkin olaraq pasiyentlərin xəstəliyə uyğunlaşmaqda çətinliklə qarşılaşdıqları göstərilir. Nevrozabənzər pozuntular dedikdə astenik, obsessiv-fobik və isterik sindromlar başa düşülür (4).

Şəkərli diabet xəstələrinin psixoloji durumu dörd mərhələyə bölünür:

- ilkin mərhələ diabetin yaranması ilə əlaqəlidir
- ikinci mərhələ fəsadların yaranması ilə bağlıdır
- üçüncü mərhələ insulinoterapiya təyini ilə yaranır
- dördüncü mərhələ stasionarda müalicə zamanı yaranır

Xəstəliyin başlanğıc mərhələlərində pasiyentlər həkimlərin tövsiyələrinə riayət edirlər, belə ki, xəstələr diaqnozlarını mənəvi olaraq hələ tam qəbul etmirlər və xəstəlik haqqında məlumatları azdır (5). Lakın xəstəlik müddəti artdıqca pasiyentlər öz vəziyyətlərini daha yaxşı anlayırlar, xəstəliyin keçici olmayacağı - xroniki hal olduğunu başa düşürlər. Bu zaman xəstələri gələcək sağlamlıqları, həyat keyfiyyətini neçə artıra biləcəkləri haqqında fikirlər narahat etməyə başlayır (6). Bəzi pasiyentlərdə xəstəlik müddəti artdıqca uyğunlaşma mexanizmləri hesabına həyat keyfiyyətləri artır. Onlar sağlamlıqlarının qayğısına qalıb, vaxtı-vaxtında endokrinoloqa müraciət edir, pəhriz saxlayır, sosial həyatlarını aktiv sürürlər. Lakın bir qrup

xəstələrdə əksinə olaraq pessimistik fikirlərə qapanma, depressiya, narahatlıq halları, müalicəyə və həkimə inamsızlıq yaranır (7).

Aparılan elmi işin əsas məqsədi şəkərli diabet tip II olan xəstələrdə depressiya, stress və narahatlıq hallarının DASS 21 psixoloji sorğu testi ilə qiymətləndirilməsidir. Bu sorğu 21 sualdan ibarət olan testi ingilis dilindən tərcümə olunmuş qısaldılmış variantdır.

Tədqiqatda 63 nəfər pasiyent iştirak etmişdir. Bütün pasiyentlərdə şəkərli diabet tip II diaqnozu qoyulmuşdur. Xəstələrin bir qrupunda (13 nəfərdə ) yanaşı olaraq ikincili yanaşı gedən xəstəliklər (ürək-damar patologiyası, dəri xəstəlikləri) qeyd olunur. Sorğuda iştirak edən pasiyentlər Azərbaycan Tibb Universitetinin Terapevtik Klinikasında Endokrinologiya şöbəsində stasionar və ambulator qeydiyyatda olan xəstələrdir. Bütün xəstələr sorğuda iştirakları könüllü olduğu və əldə olunan materiallardan istifadə olunmasına narazılıq bildirməyəcəkləri haqqında ərizə imzalamışdırlar. Bütün materiallar SPSS 16.0 proqramı ilə hesablanmışdır.

Birinci qrup pasiyentlərdə N-50 (yanaşı xəstəliyi olmayan ŞD xəstələri) orta yaş 59.1±10.8 olmuşdur. Əksər pasiyentlər 55–63 yaşarası (48%) olan, qadınlar (70.0%), ailəli olanlar isə 85.0% olmuşdur. Pasiyentlərin 74% -nin daimi işi, 90%-nin ali təhsilli olması qeyd olunur.

Digər qrup pasiyentlər N-13 (yanaşı xəstəliyi olan ŞD xəstələri) arasında orta yaş göstəricisi 68.9±8.8 olmuşdur. Bu pasiyentlərdə yanaşı xəstəliyin müddəti şəkərli diabetin müddətindən çox olmuşdur.

Aşağıdakı cədvəldə iki qrup pasiyentlərdə depressiya, narahatlıq və stres göstəriciləri haqqında məlumat verilmişdir. Alınan rəqəmlərdən göründüyü kimi yanaşı xroniki xəstəliyi olan pasiyentlərdə depressiya, narahatlıq və stres rəqəmləri digər qrupa nisbətən bir qədər aşağıdır.

| | Qrup 1 (N=50) | Qrup 2 (N=13) |
|---|---|---|
| Ümumi ballar | 19.5(15.5 ÷25.0) | 19.0 (11.5 ÷24.0) |
| Depressiya | 9.4 (4.2 ÷10.0) | 7.9 (3.9 ÷10.7) |
| Narahatlıq | 17.5 (15.8 ÷20.1) | 16.5 (15.1÷ 19.8) |
| Stres | 27.4 (25.9÷ 43.5) | 26.9 (25.1÷41.0) |

Digər statistik test nəticələrinə görə ailəli pasiyentlərdə (68.2 %; p=0.03) və ali təhsili olan xəstələrdə (69.8%; p=0.04) depressiya göstəriciləri daha aşağıdır. Yüksək depressiya və stress göstəriciləri əsasən orta təhsilli, aşağı əmək haqqı alan və orta yaşlı kişi xəstələrində təyin olunmuşdur. Cədvəl 1. Göstərilən nəticələrə görə demək olar ki, yanaşı daha uzun müddət xroniki xəstəliyi olan pasiyentlərdə uyğunlaşma mexanizmləri hesabına depressiya, narahatlıq, stress göstəriciləri daha aşağıdır.

**Məqalənin aktuallığı.** Şəkərli diabet tip II ilə ildən-ilə xəstələnənlərin sayının artması, bu xəstəliyin bir sıra fəsadlarının əliliyə səbəb olması daim endokrinoloqları narahat edir. Klinik psixologiyanın son illər inkişafı ilə xroniki xəstələrin psixoloji durumu, onların həyat keyfiyyəti və xəstəliyin daxili təzahürü kimi anlayışlar psixoloqların, həmçinin terapevtlərin diqqətini çəkir.

**Məqalənin elmi yeniliyi.** İlk dəfə Azərbaycanda həm stasionarda yatan, həm də ambulator endokrinoloqa müraciət edən şəkərli diabet tip II xəstəliyi olan pasiyentlər arasında psixoloji sorğu aparılmışdır. Şəkərli diabet xəstələrinin kliniki xarakteristikaları ilə psixoloji durumu

arasında əlaqə öyrənilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Alınan nəticələr şəkərli diabet xəstələrinin psixosomatikası haqqında bilikləri genişləndirməklə, onların həyat keyfiyyətlərini artırmaq, müalicələrinə müsbət təsir edəcək tədbirlərin görülməsinə, mənfi psixo-emosional təsirlərin aradan qaldırılmasına kömək edə bilər.

## Ədəbiyyat

1. World health organization: Health Topics Fact-sheet Diabetes. Available from: http://www.who.int/news-room/fact-sheets/detail/diabetes.
2. American Psychological Association. (2004) "Chronic Illness." APAHelpCenter.org.- Accessed on 10/24/2007
3. Collins MM, Corcoran P, Perry IJ. Anxiety and depression symptoms in patients with diabetes. Diabet Med. 2009; 26 (2):153–61.
4. Ali S, Stone MA, Peters JL, Davies MJ, Khunti K. The prevalence of co-morbid depression in adults with Type 2 diabetes: a systematic review and meta-analysis. Diabetic Med.2006; 23(11):1165-73.
5. Кошанская А.Г. Взаимосвязи психологических и клинических характеристик у больных сахарным диабетом II типа при различных вариантах его течения. Dissertasiya, 2007. -səh. 22
6. Cox DJ, Gonder-Frederick L. Major developments in behavioral diabetes research. Journal of Consulting and Clinical Psychology, Vol 60(4), Aug 1992. P.628–638.// https://www.ncbi.nlm.nih.gov/pubmed/1506511
7. Rubin RR, Payrot M. Psychological Issues and Treatments for People with Diabetes. Journal of Clinical Psychology. N 57(4) 04/2001; səh.457. // https://www.ncbi.nlm.nih.-gov/pubmed/11255202

**А.Ф. Иманова**

## Уровень депрессии, стресса, тревоги и психологический статус у больных с сахарным диабетом тип 2

## Резюме

Большинство пациентов предпочитают социальную поддержку от друзей, семьи, врачей и медсестер. Хорошая социальная поддержка и оптимизм помогают пациентам справляться с хроническими заболеваниями. Полученные результаты свидетельствуют о различии и значении качества жизни и психологического благополучия у пациентов с сахарным диабетом и другими хроническими заболеваниями. Депрессия является серьезной проблемой, которая влияет на успешное лечение и приводит к ухудшению состояния пациентов. Понимание взаимосвязи между эмоциональными расстройствами (тревога, депрессия, стресс) характера психологических проблем пациентов с диабетом могут защитить их от негативных последствий болезни. Реакция на стресс может влиять на поведенческие факторы, антропометрические показатели, уровень депрессии и тревоги. Отсутствие мониторинга психического состояния пациентов с высоким уровнем стресса

и тревоги также усугубляют поведенческие факторы риска.

**A.F. Imanova**

## Validation and psychometric properties of the depression anxiety and stress scales among patients with diabetes mellitus type 2

### Summary

Most of the patients wished to get social support from friends, family, physicians and nurses. Good social support and optimism helps patients cope with chronic disease. The results offer a significance of quality of life and psychological well-being in this population. Depression is a major problem for successful treatment and leads to a worsening of the condition of patients with illnesses. Understanding the correlation between the emotional disorders (anxiety, depression, stress) and social – demographic factors and comprehension the nature of the psychological problems of patients with diabetes can protect them from the negative consequences of illness. The DASS 21 version is a acceptable and psychometrically questionnaire which can be used in hospitals, or as a screening tool at different departments.

**Redaksiyaya daxil olub:** 16.01.2010